**İzah**: *Test tapşırığında alıcının hədiyyə üçün hansı büdcəni nəzərdə tutduğu soruşulur. Dialoqun "В коллекции есть вазы самой разной стоимости, вы в какую сумму хотели уложиться? – Около двухсот манатов" olan hissəsində alıcının hədiyyə üçün nəzərdə tutduğu məbləğin 200 manatdan çox olmaması qeyd olunur. Beləliklə,* ***doğru cavab "на сумму не больше 200 манатов"*** *ifadəsinin verildiyi bənddir.*

**A variantı 4 saylı test tapşırığı**
**B variantı 4 saylı test tapşırığı**
**C variantı 4 saylı test tapşırığı**
**D variantı 4 saylı test tapşırığı**

Выберите верное утверждение.

A) Покупателю сделали скидку после выбора вазы.
B) Покупатель хотел купить самую дорогую вазу.
C) В магазине продаются копии авторских ваз.
D) Выбранная ваза была розового цвета.
E) Покупатель подбирал вазу под тёмные стены комнаты.

**İzah**: *Yuxarıda verilmiş dinləyib-anlama blokuna aid bu test tapşırığı dialoqa əsasən doğru fikrin müəyyən edilməsini tələb edir. Dialoqun sonunda alıcının qərarından sonra satıcı endirim edilməsinin mümkünlüyü haqqında məlumat verir (*Но все же мне

больше нравится первая, которую вы показали. – Да, это действительно так, первая ваза намного лучше. Сегодня, по случаю праздника, мы можем сделать вам скидку.). *Beləliklə,* ***doğru cavab "Покупателю сделали скидку после выбора вазы"*** *fikrinin verildiyi bənddir.*

**A variantı 5 saylı test tapşırığı**
**B variantı 5 saylı test tapşırığı**
**C variantı 5 saylı test tapşırığı**
**D variantı 5 saylı test tapşırığı**

На какой вопрос можно найти ответ в тексте?

A) В каком стиле была мебель в квартире подруги?
B) Какие вазы нравятся подруге покупателя?
C) Где находится магазин изделий?
D) По какому поводу покупатель хотел купить подарок?
E) Каким способом покупатель оплатил свою покупку?

**İzah:** *Yuxarıda verilmiş dinləyib-anlama blokuna aid bu test tapşırığı dialoqa əsasən hansı sualın cavabının mətndə əks etdirildiyi soruşulur. Dialoqun əvvəlində alıcının hədiyyəni alma səbəbi vurğulanır: «*Не могли бы вы мне помочь? Я ищу подарок на свадьбу для своей подруги, что-нибудь красивое для квартиры". Digər bəndlərdə verilmiş suallar dialoqda öz əksini tapmayıb. *Beləliklə,* ***doğru cavab "По какому поводу покупатель хотел купить подарок?"*** *fikrinin verildiyi bənddir.*

***Прочитайте текст и выполните задания 6 – 10.***

В четвертый четверг ноября в США отмечают государственный праздник – День благодарения. Это один из самых популярных праздников в стране. День благодарения сначала был праздником выражения благодарности и признательности Богу, семье и друзьям за материальное благосостояние и доброе отношение. В настоящее время в США и Канаде праздник утратил религиозное значение и стал национальным.

День благодарения впервые был проведён в 1621 году английскими колонистами, жившими в Плимутской колонии. Предыдущая зима была очень тяжелой и голодной, новая зима также предвещала колонистам мало хорошего. Более половины из примерно сотни прибывших не смогли пережить ***суровую*** зиму и погибли от холода, голода и болезней. Выжившие же весной, с помощью местных индейцев, приступили к обработке земли. Осенью неожиданно богатый урожай стал наградой за их усилия. Первый губернатор колонистов, Уильям Брэдфорд, предложил провести день принесения благодарности Господу, чтобы поднять дух своих подчинённых. На праздник осенью 1621 года был приглашён вождь и ещё 90 индейцев того племени, которое помогло выжить колонистам в незнакомых условиях. Эта трапеза, разделённая с индейцами, и стала первым празднованием Дня благодарения. Впоследствии колонисты отмечали хороший урожай празднествами благодарения от случая к случаю. После провозглашения независимости и возникновения единого государства США первый президент страны Дж. Вашингтон предложил отмечать День благодарения ежегодно 26 ноября как национальный праздник.

В 1864 году А. Линкольн провозгласил последний четверг ноября каждого года Днём благодарения.

По старинной традиции несколько поколений одной семьи собираются в доме старших на праздничный обед. Каждый произносит слова благодарения за всё то хорошее, что произошло в его жизни. Кроме того, в этот день проводятся праздничные парады.

**A variantı 6 saylı test tapşırığı**
**B variantı 6 saylı test tapşırığı**
**C variantı 6 saylı test tapşırığı**
**D variantı 6 saylı test tapşırığı**

Выберите правильный вариант ответа (один из предложенных), согласно тексту.

6.1. День благодарения впервые был отпразднован индейцами.

A) Верно B) Неверно

**İzah:** *Şükran gününü ilk dəfə ingilis kolonistləri qeyd etmişdir.* ***Bu fikir yanlışdır.***

6.2. Время от времени колонисты праздновали День благодарения в честь плодотворного урожая.

A) Верно B) Неверно

**İzah**: *Kolonistlər Şükran gününü yaxşı məhsul yığımına görə zaman-zaman qeyd edirdilər. Mətnə əsasən* ***bu fikir doğrudur.***

6.3. А.Линкольн предложил отмечать День благодарения ежегодно 26 ноября.

A) Верно B) Неверно

**İzah:** *Hər il 26 noyabr Şükran gününü qeyd etməyi C.Vaşinqton təklif etmişdir.* ***Bu fikir yanlışdır.***

6.4. Дж. Вашингтон предложил проводить праздничные парады в День благодарения.

A) Верно B) Неверно

**İzah:** *Mətnə əsasən Şükran günündə bayram paradlarının keçirilməsi haqqında məlumat olsa da, C.Vaşinqton tərəfindən təklif edildiyi haqqında məlumat yoxdur.* ***Bu fikir yanlışdır.***

**A variantı 7 saylı test tapşırığı**
**B variantı 9 saylı test tapşırığı**
**C variantı 7 saylı test tapşırığı**
**D variantı 8 saylı test tapşırığı**

Дополните предложение.

*Губернатор Уильям Брэдфорд ... .*

A) в 1864 году отпраздновал первый День благодарения
B) решил подбодрить своих подчинённых
C) был выходцем из Канады
D) принял участие в праздничном параде
E) основал первую индейскую колонию

**İzah**: *Bu test tapşırığında cümlənin mətnə əsasən tamamlanması tələb olunur. Mətndə verilmiş "Первый губернатор колонистов, Уильям Брэдфорд, предложил провести день принесения благодарности Господу, чтобы поднять дух своих подчинённых" cümləsindən bəlli olur ki, Vilyam Bretford tabeliyində olanları ruhlandırmaq qərarına gəlir. Beləliklə, "****решил подбодрить своих подчинённых****" fikrinin qeyd olunduğu* ***bənd*** *doğrudur.*

**A variantı 8 saylı test tapşırığı**
**B variantı 7 saylı test tapşırığı**
**C variantı 9 saylı test tapşırığı**
**D variantı 9 saylı test tapşırığı**

Что сделали колонисты, жившие в Плимутской колонии?

1. основали колонию в 1621 году
2. объявили День благодарения общенародным праздником
3. с помощью местных индейцев начали обрабатывать землю
4. отпраздновали День благодарения без вождя
5. в 1620 году прошли через тяжёлые испытания

A) 2, 4 B) 2, 3 C) 3, 5 D) 1, 3, 4 E) 1, 4, 5

**İzah:** *Bu qapalı tipli test tapşırığında Plimut koloniyasında yaşayan kolonistlərin nə etdikləri soruşulur. Burada 5 fikir verilmişdir. Mətnə əsasən, yerli hindilərin köməyi ilə kolonistlər torpağı belləməyə başlayıblar və 1620-ci ildə ağır istirablardan keçiblər. Doğru cavab* ***3 və 5-ci bəndlərdir****.*

**A variantı 9 saylı test tapşırığı**
**B variantı 8 saylı test tapşırığı**
**C variantı 8 saylı test tapşırığı**
**D variantı 7 saylı test tapşırığı**

Определите значение слова «*суровый*» в тексте

A) холодный B) строгий C) угрюмый D) серьёзный E) тяжкий

**İzah**: *Seçilmiş* ***"суровый"*** *sözünün mətnə əsasən mənasını təyin etmək lazımdır. Mətndə həmin söz "****soyuq****" mənasında işlənilir və verilmiş bəndlərə əsasən* "холодный" *sözü doğru cavab hesab edilir. Digər bəndlərdə verilən sözlərin mənası:* строгий – *tələbkar,* угрюмый – *qaşqabaqlı,* серьёзный – *ciddi, тяжкий – ağır mənalarını verir. Beləliklə, "***холодный***" qeyd olunduğu bənd* ***doğru cavab*** *hesab olunur.*

**A variantı 10 saylı test tapşırığı**
**B variantı 10 saylı test tapşırığı**
**C variantı 10 saylı test tapşırığı**
**D variantı 10 saylı test tapşırığı**

Какие из перечисленных утверждений являются верными?

1. Весной 1621 года английские колонисты собрали богатый урожай.
2. Вождь и 90 индейцев приняли участие на празднике осенью 1621 года.
3. Суровый климат привел к гибели большей части прибывших.
4. В современную эпоху в США День благодарения отмечается в четвёртый четверг ноября.
5. В XXI в. в США и Канаде День благодарения является религиозным праздником.

**İzah:** *Bu açıq tipli test tapşırığında verilmiş fikirlərdən hansının doğru olduğu soruşulur. Mətnə əsasən, başçı və 90 hindli 1621-ci ilin payızında keçirilən bayramda iştirak etmiş, gələnlərin çox hissəsinin məhv omasının səbəbi sərt iqlim olmuşdur. Həmçinin, müasir dövrdə ABŞ-da Şükran günü noyabrın dördüncü cümə axşamında qeyd olunduğu mətndə vurğulanır. Beləliklə,* ***2, 3 və 4-cü bəndlərdə*** *qeyd olunduğu fikirlər doğru cavablardır.*

***Прочитайте текст и выполните задания 11 – 15.***

Чтобы понять, что такое парниковый эффект, мы должны сначала разобраться в работе парника. Если вы когда-нибудь были внутри парника в солнечный день, то должны знать, что там жарче, чем на улице. Это происходит от того, что тепловое излучение Солнца проходит сквозь окна и нагревает находящиеся внутри предметы, которые теряют своё тепло при испарении. Однако стёкла окон отражают часть тепла, и таким образом внутренняя часть парника нагревается.

Некоторые газы в атмосфере Земли ведут себя так же, как и стёкла парника. Они улавливают тепло Солнца и удерживают его на поверхности Земли. Атмосфера Земли в данном случае выступает в качестве парника, в противном же случае наш мир был бы гораздо холоднее.

Однако тут тоже возникают проблемы. Сегодня во всем мире сжигается огромное количество топлива, вследствие чего в атмосферу выбрасывается все больше газов и происходит загрязнение атмосферы Земли. Это приводит к постепенному перегреву внутренних его слоёв и способствует увеличению парникового эффекта.

Парниковый эффект создается в основном за счёт углекислого газа, а атмосфера Земли в свою очередь это смесь различных газов. Животные и люди выдыхают углекислый газ, а растения поглощают его. Таким образом, животные и растения вместе могут сохранить атмосферный баланс и удержать уровень углекислого газа на Земле. Однако теперь образ жизни людей нарушает это равновесие. Мы сжигаем топливо в автомобилях и во время производственных процессов, и выхлопные газы повышают содержание углекислого газа в атмосфере.

В некоторых странах сжигаются целые массивы девственных лесов, чтобы освободить земли для сельского хозяйства. Это порождает двойную проблему: во-первых, при горении в атмосферу выделяется большое количество углекислого газа, во-вторых, вырубка деревьев, которые поглощают углекислый газ, приводит к уменьшению площади лесных массивов. Если правительства разных стран ничего не предпримут, то атмосфере может быть причинён невосполнимый ущерб.

**A variantı 11 saylı test tapşırığı**
**B variantı 11 saylı test tapşırığı**
**C variantı 11 saylı test tapşırığı**
**D variantı 11 saylı test tapşırığı**

Выберите правильный вариант ответа (один из предложенных), согласно тексту.

11.1. Сожжение лесных покровов приводит к возникновению парникового эффекта.

A) Верно B) Неверно

**İzah**: *Meşə örtüyünün yandırılması parnik effektinin yaranmasına səbəb olur. Mətnə əsasən* ***bu fikir doğrudur.***

11.2. Животные и растения поглощают углекислый газ.

A) Верно B) Неверно

**İzah:** *Bitkilər karbon qazını udur, heyvanlar isə əksinə, buraxır. Mətnə əsasən* ***bu fikir yanlışdır.***

11.3. Даже в жаркие дни на улице прохладнее, чем в парнике.

A) Верно B) Неверно

**İzah**: *Ən isti günlərdə belə parnikin içi küçədən istidir. Mətnə əsasən* ***bu fikir doğrudur.***

11.4. Увеличение парникового эффекта в атмосфере связано с деятельностью человека.

A) Верно B) Неверно

**İzah**: *Atmosferdə parnik effektinin artması insan fəaliyyəti ilə əlaqəlidir. Mətnə əsasən* ***bu fikir doğrudur.***

**A variantı 12 saylı test tapşırığı**
**B variantı 14 saylı test tapşırığı**
**C variantı 12 saylı test tapşırığı**
**D variantı 14 saylı test tapşırığı**

Почему внутренняя часть парника нагревается?

A) из-за отражения тепла стёклами
B) из-за перегрева атмосферы
C) из-за смеси различных газов
D) из-за перепадов температуры
E) из-за производственных процессов

**İzah**: *Bu test tapşırığında parnikin daxili hissəsinin nə səbəbdən isindiyi soruşulur. Mətnə əsasən parnikin daxili hissəsinin isinməsinin səbəbi şüşələrin istini əks etməsidir: "Это происходит от того, что тепловое излучение Солнца проходит сквозь окна и нагревает находящиеся внутри предметы, которые теряют своё тепло при испарении. Однако стёкла окон отражают часть тепла, и таким образом внутренняя часть парника нагревается". Beləliklə, "****из-за отражения тепла стёклами****" fikrinin olduğu bənd* ***doğru cavab*** *sayılır.*

**A variantı 13 saylı test tapşırığı**
**B variantı 12 saylı test tapşırığı**
**C variantı 14 saylı test tapşırığı**
**D variantı 13 saylı test tapşırığı**

Дополните предложение:

*Одним из положительных свойств парникового эффекта в атмосфере является ... .*

A) уменьшение лесных массивов
B) защита планеты от излучения Солнца
C) снижение уровня поглощения углекислого газа
D) понижение температуры воздуха
E) согревание земной поверхности

**İzah**: *Bu test tapşırığında cümlənin mətnə əsasən tamamlanması tələb olunur. Mətndə verilmiş "Некоторые газы в атмосфере Земли ведут себя так же, как и стёкла парника. Они улавливают тепло Солнца и удерживают его на поверхности Земли. Атмосфера Земли в данном случае выступает в качестве парника, в противном же случае наш мир был бы гораздо холоднее" cümlələrindən bəlli olur ki, atmosferin parnik effektinin müsbət xüsusiyyətlərindən biri yer səthinin isinməsidir. Beləliklə, "****согревание земной поверхности****" fikrinin verildiyi bənd* ***doğru cavab*** *sayılır.*

**A variantı 14 saylı test tapşırığı**
**B variantı 13 saylı test tapşırığı**
**C variantı 13 saylı test tapşırığı**
**D variantı 12 saylı test tapşırığı**

Что нарушает атмосферный баланс на планете Земля?

A) разогрев Земли
B) девственные леса
C) увеличение углекислого газа
D) солнечные лучи
E) животные и растения

**İzah**: *Bu test tapşırığında Yer kürəsində atmosfer balansını nəyin pozduğu soruşulur. Mətnə əsasən atmosfer balansını karbon qazının artması pozur: "Таким образом, животные и растения вместе могут сохранить атмосферный баланс и удержать уровень углекислого газа на Земле. Однако теперь образ жизни людей нарушает это равновесие. Мы сжигаем топливо в автомобилях и во время производственных процессов, и выхлопные газы повышают содержание углекислого газа в атмосфере". Beləliklə, "****увеличение углекислого газа****" fikrinin qeyd edildiyi bənd* ***doğru cavab*** *sayılır.*

**A variantı 15 saylı test tapşırığı**
**B variantı 15 saylı test tapşırığı**
**C variantı 15 saylı test tapşırığı**
**D variantı 15 saylı test tapşırığı**

На какие вопросы можно найти ответ в тексте?

1. Каковы причины возникновения парникового эффекта?
2. Кто впервые исследовал парниковый эффект?
3. Как правительства разных стран решают проблему загрязнения атмосферы?
4. Как флора и фауна влияют на атмосферу?
5. Какова площадь лесных массивов на Земле?

**İzah:** *Bu test tapşırığında verilmiş suallardan hansılarının cavabının mətndə əks olunduğu soruşulur. Mətndə parnik effektinin yaranma səbəbləri, flora və faunanın atmosferə necə təsir etdiyi suallarının cavabı var. Verilmiş bəndlərə əsasən* ***"Каковы причины возникновения парникового эффекта?*** *və* ***Как флора и фауна влияют на атмосферу?"*** *sualları olan bəndlər* ***doğru cavab*** *hesab edilir.*

**A variantı 16 saylı test tapşırığı**
**B variantı 20 saylı test tapşırığı**
**C variantı 20 saylı test tapşırığı**
**D variantı 16 saylı test tapşırığı**

Укажите ряд слов, употребляющихся с предлогом *в*.

A) пруд, борт, кафе
B) край, собрание, шалаш
C) школа, континент, берег
D) лес, посёлок, депо
E) луг, станция, кино

***İzah:*** *Bu test tapşırığı qrammatik bilikləri yoxlayır. Verilmiş sözlərlə «в» sözönüsünün düzgün formada istifadəsi tələb olunur.* ***"Пруд, борт, край, собрание, континент, берег, луг, станция"*** *sözləri "на" sözönüsü ilə,* ***"кафе, шалаш, школа, кино, лес, посёлок, депо"*** *sözü "в" sözönü ilə istifadə olunur. Beləliklə, "****лес, посёлок, депо****" fikri olan bənd* ***doğru cavab*** *sayılır.*

**A variantı 17 saylı test tapşırığı**
**B variantı 18 saylı test tapşırığı**
**C variantı 18 saylı test tapşırığı**
**D variantı 17 saylı test tapşırığı**

Со словом *болотистый (-ая; -ое; -ые)* сочетаются слова:

1. местность
2. газ
3. цвет
4. почва
5. снаряжение
6. испарения

A) 1, 4  B) 2, 5  C) 3, 5  D) 3, 4  E) 1, 6

**İzah:** *"Болотистый" sözü "bataqlığı çox olan, bataqlıq" mənasında işlənir. Bu söz "***местность"** *və "***почва"** *sözü ilə işlənə bilər. Digər verilmiş sözlər* ***газ, цвет, испарения*** *və* ***снаряжение*** *isə* ***«болотный»*** *sözü ilə istifadə olunmalıdır. Beləliklə, doğru cavab* ***"местность"*** *və* ***"почва" sözlərinin*** *qeyd edildiyi bəndlərdir.*

**A variantı 18 saylı test tapşırığı**
**B variantı 17 saylı test tapşırığı**
**C variantı 16 saylı test tapşırığı**
**D variantı 18 saylı test tapşırığı**

Укажите многозначные слова.

1. баян
2. голос
3. каучук
4. игра
5. галстук

A) 1, 3  B) 1, 4  C) 2, 3  D) 4, 5  E) 2, 4

**İzah:** *Bu test tapşırığı leksik biliyi yoxlayır. Verilmiş isimlərdə çoxmənalı sözlər olan bəndi müəyyən etmək tələb olunur. Verilmiş «* ***голос"*** *(1. səs, səda; 2. rəy, fikir, «* ***игра"*** *(1.oyun; 2. çalma, oynama; 3. parıldama) sözləri çoxmənalı hesab olunur.* ***Баян*** (musiqi aləti), ***каучук*** (kauçuk), ***галстук*** (qalstuk) sözləri təkmənalıdır. *Beləliklə,* ***doğru cavab "2"*** *və* ***"4"*** *sözlərinin qeyd olunduğu bənddir.*

**A variantı 19 saylı test tapşırığı**
**B variantı 19 saylı test tapşırığı**
**C variantı 17 saylı test tapşırığı**
**D variantı 20 saylı test tapşırığı**

Укажите ***ошибочный*** вариант.

A) Пришедшие в парк дети быстро принялись за игру.
B) В сады, протянувшиеся вдоль берега, пришла непривычная тишина.
C) Путники, утомленные дорогой, остановились на отдых.
D) Экскурсия не состоялась ввиду болезни организатора.
E) Подъезжая к станции, у меня слетела шляпа.

**İzah:** *Bu test tapşırığında səhv cümləni müəyyən etmək tələb olunur.* "Подъезжая к станции, у меня слетела шляпа" (Stansiyaya yaxınlaşanda, mənim şlyapam uçdu) cümləsi məntiqi baxımdan səhvdir. Qrammatik qaydalara əsasən feili bağlama ilə feil (xəbər) bir əşyaya aid olmalıdır, ancaq bu cümlədə sanki şlyapa stansiyaya yaxınlaşır. ***"Подъезжая к станции, у меня слетела шляпа"*** *fikri olan bənd* ***doğru cavab*** *sayılır.*

**A variantı 20 saylı test tapşırığı**
**B variantı 16 saylı test tapşırığı**
**C variantı 19 saylı test tapşırığı**
**D variantı 19 saylı test tapşırığı**

Составьте диалог.

– Лейла, где ты была вчера?
– …
– А что тебе там особенно понравилось?
– …
– Что ты нового узнала о таре?
– …
– Как он играл на таре?
– …
– А как раньше держали тар при исполнении?
– …

1. Раньше тар при исполнении держали на коленях.
2. Я узнала, что музыкант Мирза Садыг вместо пяти струн на таре сделал одиннадцать.
3. Он играл на таре, прижимая его к груди.
4. Я была в музее музыкальных инструментов.
5. Мне понравился тар.

A) 4, 3, 5, 2, 1
B) 4, 5, 2, 3, 1
C) 2, 4, 1, 5, 3
D) 2, 1, 3, 4, 5
E) 5, 1, 4, 3, 2

**İzah:** *Bu test tapşırığında verilmiş cümlələri məntiqi ardıcıllıqla düzməklə dialoq qurmaq tələb olunur. Dialoqda iki nəfərin söhbətindən bəhs edilir. Dialoq həmsöhbətlərdən birinin digərindən dünən harada olması barəsində verdiyi sual ilə başlayır. Dialoq qarşı tərəfin dünən müasir alətlər muzeyində olduğunu deməsi ilə davam edir. Daha sonra həmsöhbətlərdən biri digərindən təəssüratlarını bölüşməsini xahiş edir. Beləliklə, bu ünsiyyət ardıcıl olaraq «***4, 5, 2, 3, 1***» *sıralanması ilə davam edir.*

# İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqları

**A variantı 21 saylı test tapşırığı**
**B variantı 26 saylı test tapşırığı**
**C variantı 35 saylı test tapşırığı**
**D variantı 24 saylı test tapşırığı**

Sahələrə həqiqi ədədləri daxil etmək üçün verilənlərin hansı tipindən istifadə olunur (Access 2019)?

A) Number B) Currency C) Float
D) AutoNumber E) Integer

**İzah:** Access 2019-da sahədə mövcud olan verilənlər əsasən aşağıdakı tiplərlə təsvir edilir: Short Text (Короткий текст/Qısa mətn), Long Text (Длинный текст/Uzun mətn), Number (Числовой/Ədədi), Large Number (Bigint), Date\Time (Дата\время/Tarix\Vaxt), Date\Time Extended (Дата\время расширенный/Tarix\Vaxt genişləndirilmiş), Currency (Денежный/Pul), Autonumber (Счетчик/Sayğac), Yes/No (Логический/Məntiqi), OLE (Object Linking and Embedding/Поле объекта OLE/OLE obyekt sahəsi), Hyperlink (Гиперссылка/Hiperəlaqə), Attachment (Вложение/Qoşma) və Calculated (Вычисляемый/Hesablanmış). Number (Числовой/Ədədi) tipli sahələr ədədlərlə ifadə olunan verilənlərin daxil edilməsinə xidmət edir. Autonumber (Счетчик/Sayğac) sahəsi isə ilk növbədə adi ədədi sahə kimi görünsə də, o, avtomatik artmaq xüsusiyyətinə malikdir. Bu sahə sadəcə sayğac rolunu oynayır. Oraya VB-dəki yazıların sayı avtomatik olaraq yazılır.
**Doğru cavab:** Number.

**A variantı 22 saylı test tapşırığı**
**B variantı 36 saylı test tapşırığı**
**C variantı 39 saylı test tapşırığı**
**D variantı 26 saylı test tapşırığı**

Rastr təsvir 8-rəngli palitranın köməyi ilə yaradılarsa, bu təsvirin bir pikselinin informasiya tutumunu müəyyən edin.

A) 3 bayt B) 6 bit C) 3 bit D) 8 bit E) 8 bayt

**İzah:** İstənilən tip informasiyada olduğu kimi qrafik verilənlər də kompüterin yaddaşında ikilik kodlar şəklində saxlanılır. Qrafik informasiyanı kodlaşdıran zaman N-rəngli palitradan istifadə olunarsa, bir pikselin informasiya tutumu $\log_2 N$ düsturu ilə hesablanar. Şərtə əsasən rəng sayı 8 olduğundan bir pikselin informasiya tutumu $\log_2 8=3$ bit olacaq.
**Doğru cavab:** 3 bit.

**A variantı 23 saylı test tapşırığı**
**B variantı 37 saylı test tapşırığı**
**C variantı 40 saylı test tapşırığı**
**D variantı 31 saylı test tapşırığı**

İlkin proqramı maşın dilinə çevirən proqramı müəyyən edin.

A) Utilit B) İnterfeys C) Drayver
D) Translyator E) İdentifikator

**İzah:** Proqramlaşdırma dillərində yazılmış proqrama ilkin proqram deyilir. İlkin proqramı maşın dilinə çevirmək üçün translyator adlanan xüsusi proqramlardan istifadə olunur.
**Doğru cavab:** Translyator.

**A variantı 24 saylı test tapşırığı**
**B variantı 21 saylı test tapşırığı**
**C variantı 29 saylı test tapşırığı**
**D variantı 36 saylı test tapşırığı**

Verilənlər bazası fraqmentinə əsasən
**(Fizika > 50 OR Cəbr > 60) AND**
**(Kimya > 55 OR Biologiya < 70)** sorğusuna cavab verən yazıların sayını müəyyən edin.

| N | Soyadı | Fizika | Cəbr | Kimya | Biologiya |
|---|---|---|---|---|---|
| 1 | Sabitov | 82 | 56 | 46 | 70 |
| 2 | Quliyev | 43 | 62 | 45 | 23 |
| 3 | Əzizov | 54 | 74 | 68 | 83 |
| 4 | Kərimova | 71 | 63 | 56 | 79 |
| 5 | Rüstəmli | 33 | 25 | 74 | 46 |
| 6 | Pənahova | 18 | 92 | 83 | 61 |

A) 5 B) 4 C) 3 D) 1 E) 2

**İzah:** Sorğuda AND (и, və) olduqda şərtlərin hamısı, OR (или, yaxud) olduqda isə şərtlərdən heç olmasa biri ödənməlidir. Tapşırıq aşağıdakı ardıcıllıqla yerinə yetiriləcək:
1) Fizika > 50 OR Cəbr > 60 sorğusunun nəticəsi 1, 2, 3, 4, 6 yazıları;
2) Kimya > 55 OR Biologiya < 70 sorğusunun nəticəsi 2, 3, 4, 5, 6 yazıları;
3) (Fizika > 50 OR Cəbr > 60) AND (Kimya > 55 OR Biologiya < 70) sorğusunun nəticəsi isə 2, 3, 4, 6 yazıları olacaq.

**Doğru cavab:** 4.

**A variantı 25 saylı test tapşırığı**
**B variantı 35 saylı test tapşırığı**
**C variantı 23 saylı test tapşırığı**
**D variantı 37 saylı test tapşırığı**

Doğru ***olmayan*** mülahizələri müəyyən edin.

1. Meqabod yaddaş tutumunun ölçü vahididir.
2. Strimer verilənləri maqnit lenti üzərində saxlayan yaddaş qurğusudur.
3. Skaner periferiya qurğularını idarə edən qurğudur.
4. CMOS kompüter haqqında verilənlərin uzun müddətli saxlanılması üçün nəzərdə tutulmuşdur.
5. Şin prosessorla yaddaş və ya kontrollerlər arasında verilənlərin və idarəetmə siqnallarının ötürülməsini təşkil edir.
6. Kontroller idarə qurğusu olub, giriş-çıxış qurğularını mərkəzi prosessorla əlaqələndirir.
7. Plotter giriş qurğusudur.

A) 1, 4, 6, 7    B) 1, 3, 7    C) 1, 4, 5, 6
D) 2, 3, 6    E) 2, 3, 5, 7

**İzah:** Yanlış mülahizələrin doğru izahı aşağıdakı kimidir.
Meqabod verilənlərin ötürülmə sürətinin ölçü vahididir.
Skaner kompüterə mətn, şəkil, cizgi və digər qrafik informasiyanı daxil etmək üçün istifadə olunan qurğudur.
Plotter (qrafikçəkən) qrafik informasiyanı kağız və başqa tip daşıyıcıya çıxaran qurğu olub, adətən, böyük formatda (A0, A1) olan qrafiki materialların çapı üçün istifadə olunur.
**Doğru cavab:** 1, 3, 7.

**A variantı 26 saylı test tapşırığı**
**B variantı 40 saylı test tapşırığı**
**C variantı 32 saylı test tapşırığı**
**D variantı 25 saylı test tapşırığı**

Doğru fayl adını müəyyən edin.

A) c_dim:user.txt
B) -File.PRN
C) Qaya|lar.png
D) imtahan?ları.doc
E) AUX.exe

**İzah:** Faylların adlarında **\ / : * ? " < > |** simvollarından başqa, bütün simvollardan istifadə etmək olar. Qeyd etmək lazımdır ki, MS-DOS əməliyyat sistemində işləyən MS-DOS qurğularını işarə etmək üçün müəyyən adlardan istifadə olunur ki, faylları adlandırarkən bunlardan istifadə etmək olmaz. MS-DOS qurğularının adları aşağıdakılardır:
PRN – printer;
LPT1÷LPT9 – paralel portlar;
COM1÷COM9 – ardıcıl portlar;
AUX – 1 ardıcıl portuna birləşdirilən qurğu;
CON – giriş üçün-klaviatura, çıxış üçün-ekran;
NUL – "boş" qurğu.
Bu adlara hər hansı genişlənmə əlavə etdikdə MS-DOS əməliyyat sistemi bunu qurğulara müraciət kimi başa düşür. Məsələn, CON.TXT faylına müraciət CON qurğusuna müraciətlə eynidir. Ona görə də CON.TXT-dən disk faylının adı kimi istifadə etmək olmaz. Amma faylların adlarının genişlənməsində .PRN, .AUX, .CON və .NUL-dan istifadə etmək olar.
**Doğru cavab:** -File.PRN.

**A variantı 27 saylı test tapşırığı**
**B variantı 39 saylı test tapşırığı**
**C variantı 36 saylı test tapşırığı**
**D variantı 40 saylı test tapşırığı**

Klaviaturanın *Home* düyməsini basdıqda kursor mövqeyini hara dəyişir (Word 2019)?

A) sətrin əvvəlinə
B) sənədin əvvəlinə
C) abzasın əvvəlinə
D) bir ekran səhifəsi yuxarıya
E) səhifənin əvvəlinə

**İzah:** Microsoft Word 2019 sənədində mətn sahəsində kursorun hərəkəti və mətnin seçilməsi siçan və ya klaviaturanın müəyyən düymələri vasitəsilə təmin edilir. Aşağıdakı cədvəldə mətn sahəsində hərəkət formaları üçün nəzərdə tutulan düymə və düymələr kombinasiyası verilir.

| Hərəkət | Düymələr |
|---|---|
| Kursordan yuxarıdakı sətrə | ↑ |
| Kursorun durduğu abzasın əvvəlinə | Ctrl+↑ |
| Kursorun durduğu sətrin əvvəlinə | Home |
| Sənədin əvvəlinə | Ctrl+Home |
| Kursordan bir ekran səhifəsi yuxarıya | PageUp |

**Doğru cavab:** sətrin əvvəlinə.

**A variantı 28 saylı test tapşırığı**
**B variantı 25 saylı test tapşırığı**
**C variantı 30 saylı test tapşırığı**
**D variantı 38 saylı test tapşırığı**

Sənəddə abzas nişanını əks etdirən əmr hansı lent tabında yerləşir (Word 2019)?

A) View (Вид/Görünüş)
B) Layout (Макет/Düzən)
C) Design (Конструктор/Tərtibat)
D) Review (Рецензирование/İcmal)
E) Home (Главная/Ev)

**İzah:** Microsoft Word proqramında abzas dedikdə, sonu ¶ (abzasın sonu) işarəsi ilə qurtaran, məntiqi olaraq tamamlanmış mətn fraqmenti başa düşülür. Abzasın sonu işarəsi (¶) çap edilməyən işarələrdəndir. Home (Главная/Ev) tabının Paragraph (Абзац/Abzas) lent qrupunun oxla göstərilən Show or Hide (Отобразить все знаки/Göstər yaxud Gizlət) əmri – abzas işarələrinin və digər formatlaşdırma simvollarının göstərilməsini və ya gizlədilməsini təmin edir.




**Doğru cavab:** Home (Главная/Ev).

**A variantı 29 saylı test tapşırığı**
**B variantı 23 saylı test tapşırığı**
**C variantı 21 saylı test tapşırığı**
**D variantı 32 saylı test tapşırığı**

Yeni təqdimatın yaradılma üsullarını müəyyən edin (PowerPoint 2019).

1. Klaviaturadan Ctrl+M düymələr kombinasiyasını basmaqla
2. File (Файл/Fayl) tabında olan New (Создать/Yeni) əmrini icra etməklə
3. Insert (Вставка/Əlavə et) tabında yerləşən New Slide (Создать слайд/Yeni Slayd) əmrini icra etməklə
4. Slides (Слайды/Slaydlar) panelində hər hansı slaydı seçdikdən sonra klaviaturadan Enter düyməsini basmaqla
5. Klaviaturadan Ctrl+N düymələr kombinasiyasını basmaqla
6. Quick Access Toolbar (Панель быстрого доступа/Cəld Müraciət Paneli) panelində olan New (Создать/Yeni) əmrini icra etməklə

A) 2, 5, 6　　B) 2, 3, 4　　C) 1, 3, 6
D) 1, 5, 6　　E) 1, 2, 4

**İzah:** PowerPoint təqdimat proqramında da yeni təqdimatın yaradılması üçün aşağıdakı üsullardan istifadə oluna bilər: Quick Access Toolbar (Панель быстрого доступа/Cəld Müraciət Paneli) alətlər panelindəki New (Создать/Yeni) əmrini icra etməklə; Klaviaturanın Ctrl+N düymələr kombinasiyasını basmaqla; File (Файл/Fayl) tabındakı New (Создать/Yeni) əmrini icra etməklə.

**Doğru cavab:** 2, 5, 6.

**A variantı 30 saylı test tapşırığı**
**B variantı 29 saylı test tapşırığı**
**C variantı 33 saylı test tapşırığı**
**D variantı 23 saylı test tapşırığı**

Elektron cədvəldə B sütununun enini necə artırmaq olar (Excel 2019)?

A) B3 və C3 xanaları arasındakı sərhədi siçanla sola doğru dartmaqla
B) B və C sütunlarının arasındakı sərhədi siçanla sola doğru dartmaqla
C) B və C sütunlarının arasındakı sərhədi siçanla sağa doğru dartmaqla
D) A3 və B3 xanaları arasındakı sərhədi siçanla sağa doğru dartmaqla
E) A və B sütunlarının arasındakı sərhədi siçanla sağa doğru dartmaqla

**İzah:** Cədvəlin hər hansı bir sütunun enini onun sağ qonşu sütunla sərhədini siçanla sağa doğru dartmaqla artırmaq mümkündür.




**Doğru cavab:** B və C sütunlarının arasındakı sərhədi siçanla sağa doğru dartmaqla.

**A variantı 31 saylı test tapşırığı**
**B variantı 31 saylı test tapşırığı**
**C variantı 24 saylı test tapşırığı**
**D variantı 39 saylı test tapşırığı**

Doğru mülahizələri müəyyən edin.

1. Alqoritmi təşkil edən bloklar bir-biri ilə yalnız şaquli xətlərlə birləşdirilir.
2. Dövrlərin sayı məlum olduqda modifikasiyalı dövri strukturdan istifadə olunur.
3. Psevdokodda formal dillərə xas olan əmrlərin yazılışı üçün ciddi sintaksis qaydalar yoxdur.
4. Budaqlanma üçün *əgər* və *nə qədər ki* əmrləri tətbiq olunur.
5. Blok-sxem alqoritmin təsvir üsullarından biridir.
6. Alqoritmdəki addımlar sonsuz sayda olmalıdır.

A) 2, 5, 6 B) 1, 4, 6 C) 2, 3, 5
D) 1, 4, 5 E) 1, 3, 4

**İzah:** İzahları verib hər bir uyğun mühakimə ilə müqayisə edək.

1) Alqoritmi təşkil edən bloklar bir-birilə yalnız şaquli deyil, eləcə də üfüqi xətlərlə birləşdirilir. Tapşırıqda verilmiş mühakimə səhvdir.
2) Dövrlərin sayı məlum olduqda modifikasiyalı dövri strukturlardan istifadə olunur. Tapşırıqda verilmiş mühakimə doğrudur.
3) Psevdokodda formal dillərə xas olan əmrlərin yazılışı üçün ciddi sintaksis qaydalar yoxdur. Tapşırıqda verilmiş mühakimə doğrudur.
4) Budaqlanma üçün əgər, onda və əks halda əmrləri tətbiq olunur. Tapşırıqda verilmiş mühakimə səhvdir.
5) Alqoritmin təsviri üçün istifadə olunan əsas üsullar aşağıdakılardır: sözlə (təbii dillə) təsvir; blok sxemlə təsvir; proqramla təsvir. Tapşırıqda verilmiş mühakimə doğrudur.
6) Alqoritmin nəticəlilik xassəsinə əsasən alqoritmdəki addımlar sonlu sayda olmalıdır. Tapşırıqda verilmiş mühakimə səhvdir.

**Doğru cavab:** 2, 3, 5.

**A variantı 32 saylı test tapşırığı**
**B variantı 33 saylı test tapşırığı**
**C variantı 38 saylı test tapşırığı**
**D variantı 29 saylı test tapşırığı**

18 slayddan ibarət olan təqdimat aşağıdakı parametrlərlə çapa verilmişdir. Şəklə əsasən doğru ***olmayan*** mülahizələri müəyyən edin (PowerPoint 2019).




1. Təqdimatın çap olunması üçün 20 ədəd vərəq tələb olunur.
2. Təqdimat kitab vərəqi formasında çap olunacaq.
3. Təqdimat boz rəngdə çap olunacaq.
4. İlk vərəqdə təqdimatın 1-ci slaydı 4 nüsxədə çap olunacaq.
5. Təqdimatın çap olunması üçün 72 ədəd vərəq tələb olunur.
6. İlk vərəqdə təqdimatın ilk 4 slaydı çap olunacaq.

A) 2, 5, 6 B) 2, 4, 5 C) 2, 3, 6
D) 1, 3, 6 E) 1, 3, 4

**İzah:** Təqdimatın çap olunacaq formasının ekranda əksi Print (Печать/Çap) kateqoriyasının açılışının sağ panelində verilir. Print (Печать/Çap) dialoq pəncərəsinin sol panelində isə çap xüsusiyyətləri təyin edilir. Tapşırıqda çap xüsusiyyətləri: 4 nüsxədə, hər vərəqdə üfüqi şəkildə 4 ardıcıl slayd, birtərəfli çap, dəstələnmiş, albom istiqamətində, boz rəng çalarları kimi verilmişdir. Bu xüsusiyyətlərlə çap əmri icra edildikdə 20 ədəd vərəq, hər vərəqdə 4 slaydın üfüqi şəkildə görünüşü boz rəngdə çap olunacaq.
**Doğru cavab:** 2, 4, 5.

**A variantı 33 saylı test tapşırığı**
**B variantı 38 saylı test tapşırığı**
**C variantı 27 saylı test tapşırığı**
**D variantı 22 saylı test tapşırığı**

Kompüterlərin təsnifatına görə uyğunluğu müəyyən edin.

1. Təyinatı
2. İşləmə prinsipi
3. İstifadə olunan element bazası

a. elektron lampalar, yarımkeçiricilər, inteqral sxemlər
b. universal, problemyönlü, ixtisaslaşdırılmış
c. aparat, proqram, verilənlər səviyyəsində
d. analoq, rəqəm, hibrid
e. super, mini, mikro

A) 1 – d; 2 – e; 3 – a B) 1 – e; 2 – c; 3 – b C) 1 – e; 2 – c; 3 – a D) 1 – b; 2 – c; 3 – d
E) 1 – b; 2 – d; 3 – a

**İzah:** Kompüterlər işləmə prinsipinə görə analoq (AHM), rəqəm (RHM), hibrid (HHM), istifadə olunan element bazasına görə elektron lampalı, yarımkeçiricili, inteqral sxemli, təyinatına görə isə universal (ümumi təyinatlı), problemyönümlü və ixtisaslaşdırılmış siniflərə bölünür.
**Doğru cavab:** 1 – b; 2 – d; 3 – a.

**A variantı 34 saylı test tapşırığı**
**B variantı 28 saylı test tapşırığı**
**C variantı 34 saylı test tapşırığı**
**D variantı 33 saylı test tapşırığı**

256 Hs diskretləşdirmə tezliyi ilə ikikanallı (stereo) audio yazılır. Səsyazma 32 səviyyəli diskretləşdirmə ilə aparılaraq 1 dəqiqə 4 saniyə davam edir. Hər bir siqnalın mümkün minimal və eyni sayda bitlərlə kodlaşdırıldığını nəzərə alaraq audiofaylın həcmini Kbaytla müəyyən edin.

A) 160  B) 10  C) 128  D) 20  E) 64

**İzah:** Məsələ V = a·b·n·t düsturu ilə həll olunur. Burada, a=256 Hs – diskretləşdirmə tezliyi, b= $\log_2 32$=5 bit – səs dərinliyi, n=2 – kanalların sayı, t=1 dəq.4 san.=64 san. – isə səsyazmanın davametmə müddətidir.

V=256·5·2·64=5·215bit=20 Kbayt

**Doğru cavab:** 20.

**A variantı 35 saylı test tapşırığı**
**B variantı 34 saylı test tapşırığı**
**C variantı 22 saylı test tapşırığı**
**D variantı 28 saylı test tapşırığı**

Uyğunluğu müəyyən edin.

1. $BX_{16} = 183_{10}$
2. $110X01_2 = 49_{10}$
3. $X9_{10} = X3_{16}$

a. X = 4
b. X = 5
c. X = 1
d. X = 0
e. X = 7

A) 1 – e; 2 – c; 3 – d  B) 1 – b; 2 – c; 3 – a
C) 1 – b; 2 – d; 3 – a  D) 1 – e; 2 – d; 3 – c
E) 1 – e; 2 – c; 3 – a

**İzah:** 1) $BX_{16}=183_{10}$, burada, $183_{10}=11\cdot16^1+7\cdot16^0=B7_{16}$ olduğu üçün X=7.
2) $110X01_2=49_{10}$, burada, $49_{10}=1\cdot2^5+1\cdot2^4+0\cdot2^3+0\cdot2^2+0\cdot2^1+1\cdot2^0=110001_2$ olduğu üçün X=0.
3) $X9_{10}=X3_{16}$, burada, $X\cdot10^1+9\cdot10^0=X\cdot16^1+3\cdot16^0$ olduğu üçün X=1.

**Doğru cavab:** 1 – e; 2 – d; 3 – c.

**A variantı 36 saylı test tapşırığı**
**B variantı 24 saylı test tapşırığı**
**C variantı 31 saylı test tapşırığı**
**D variantı 30 saylı test tapşırığı**

Page Setup (Параметры страницы/Səhifə parametrləri) lent qrupu hansı taba daxildir (Word 2019)?

A) References (Ссылки/İstinadlar)
B) View (Вид /Görünüş)
C) Home (Главная/Ev)
D) Layout (Макет/Düzən)
E) Insert (Вставка/Əlavə et)

**İzah:** Layout (Макет/Düzən) tabı aşağıdakı lent qruplarına malikdir: Page Setup (Параметры страницы/Səhifə Parametrləri), Paragraph (Абзац/Abzas), Arrange (Упорядочить/Nizamla).




**Doğru cavab:** Layout (Макет/Düzən).

**A variantı 37 saylı test tapşırığı**
**B variantı 22 saylı test tapşırığı**
**C variantı 25 saylı test tapşırığı**
**D variantı 34 saylı test tapşırığı**

POP3-ün təyinatını müəyyən edin.

A) telekonfrans protokolu
B) şəbəkədə kompüterlərin ünvanlandırılması protokolu
C) elektron məktubların göndərilməsi protokolu
D) verilənlərin ötürülməsinin idarəedilməsi protokolu
E) elektron məktubların alınması protokolu

**İzah:**

| Protokol | Təyinatı |
|---|---|
| TCP | Verilənlərin ötürülməsinin idarəedilməsi protokolu |
| IP | Şəbəkədə kompüterlərin ünvanlandırılması protokolu |
| SMTP | Elektron məktubların göndərilməsi protokolu |
| POP3 | Elektron məktubların alınması protokolu |
| NNTP | Telekonfrans protokolu |

**Doğru cavab:** Elektron məktubların alınması protokolu.

**İzah:**

**A variantı 38 saylı test tapşırığı**
**B variantı 32 saylı test tapşırığı**
**C variantı 37 saylı test tapşırığı**
**D variantı 35 saylı test tapşırığı**

Müxtəlif protokollarla işləyən, bir neçə lokal şəbəkə arasında informasiya mübadiləsini təmin edən qurğunu müəyyən edin.

A) körpü B) host-kompüter C) şlüz
D) modem E) UPS

**İzah:** Müxtəlif protokollarla işləyən, bir neçə lokal şəbəkə arasında informasiya mübadiləsi şlüz vasitəsilə təmin olunur.
**Doğru cavab:** şlüz.

**A variantı 39 saylı test tapşırığı**
**B variantı 30 saylı test tapşırığı**
**C variantı 26 saylı test tapşırığı**
**D variantı 27 saylı test tapşırığı**

İş masasındakı fayl və ya qovluqları hansı göstəricilərinə görə nizamlamaq (sıralamaq) olar (Windows 10)?

A) başlığına, avtomatik, tor xəttinə
B) müəllifinə, ölçüsünə, silinmə tarixinə
C) səhifə sayına, müraciət tezliyinə, müəllifinə
D) adına, ölçüsünə, dəyişiklik tarixinə
E) çap tarixinə, açar sözlərə, adına

**İzah:** İş masasının kontekst menyusunun Sort by (Упорядочить/Nizamla) əmrinin alt menyu əmrləri ilə masa üzərindəki obyektlərin müəyyən parametrə uyğun nizamlanması təyin edilir. Belə ki, Name (Имя/Ad) parametri ilə İş masasındakı piktoqramların adının əlifba sırasına uyğun nizamlanmasını, Size (Размер/Ölçü) parametri yalnız fayl piktoqramlarının ölçüsünə uyğun nizamlanmasını, Item Type (Тип/Tip) parametri piktoqramların tipinə görə nizamlanmasını və nəhayət Date Modified (Дата изменения/Dəyişiklik vaxtı) parametri isə iş masasındakı fayl obyektlərinin dəyişiklik tarixinə uyğun nizamlanmasını təmin edir.




**Doğru cavab:** adına, ölçüsünə, dəyişiklik tarixinə.

**A variantı 40 saylı test tapşırığı**
**B variantı 27 saylı test tapşırığı**
**C variantı 28 saylı test tapşırığı**
**D variantı 21 saylı test tapşırığı**

Düstur sətrində yazılmış =COUNTIF(C1:C4, "> 20") funksiyasının təyinatını müəyyən edin **(COUNTIF/СЧЁТЕСЛИ)** (Excel 2019).

A) C1, C2, C3, C4 xanalarında qiyməti 20-dən böyük olan verilənlərin ədədi ortasını tapır.
B) C1, C4 xanalarında qiyməti 20-dən böyük olan xanaların sayını tapır.
C) C1, C2, C3, C4 xanalarında qiyməti 20-dən böyük olan xanaların sayını tapır.
D) C1, C2, C3, C4 xanalarının qiymətini 20 vahid artırır.
E) C1, C4 xanalarının qiymətini 20 vahid artırır.

**İzah:** COUNTIF (СЧЁТЕСЛИ) funksiyası verilmiş xanalar diapazonunda müəyyən şərti ödəyən ədədlərin sayını tapmaq üçün istifadə edilir. Funksiyanın formatı aşağıdakı kimidir:
COUNTIF (range; criteria) СЧЁТЕСЛИ (диапазон;критерий).
Burada arqumentlər: Range (диапазон) – yalnız ədədlər olan xanaların sayının hesablandığı diapazon;
Criteria (критерий) – verilənlərin seçilməsi üçün şərt.

Tapşırıqda verilmiş funksiyanın icrası nəticəsində C1, C2, C3, C4 xanalarında qiyməti 20-dən böyük olan xanaların sayı tapılır.
**Doğru cavab:** C1, C2, C3, C4 xanalarında qiyməti 20-dən böyük olan xanaların sayını tapır.

**A variantı 41 saylı test tapşırığı**
**B variantı 44 saylı test tapşırığı**
**C variantı 41 saylı test tapşırığı**
**D variantı 44 saylı test tapşırığı**

Sənəddə 7 sətir və 5 sütundan ibarət olan cədvəl verilmişdir. Üçüncü və dördüncü sətirlərin bütün sütunları seçildikdən sonra Merge Cells (Объединить ячейки/Xanaları Birləşdir) əmri icra olunur. Daha sonra altıncı sətrin ilk üç sütunu seçilərək aşağıdakı əmr icra olunur.




Nəticədə alınmış cədvəlin xanalarının sayını müəyyən edin (Word 2019).

**İzah:** Şərtə əsasən cədvəli tərtib etdikdə aşağıdakı kimi nəticə alınar:

<table>
<tr><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td></td><td></td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td></td><td></td></tr>
<tr><td colspan="8"></td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td></td><td></td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td><td colspan="2"></td><td></td><td></td></tr>
<tr><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td><td></td></tr>
</table>

**Doğru cavab:** 29.

**A variantı 42 saylı test tapşırığı**
**B variantı 43 saylı test tapşırığı**
**C variantı 43 saylı test tapşırığı**
**D variantı 42 saylı test tapşırığı**

Kontekst menyusunu aşağıdakı üsullardan hansı ilə açmaq olar (Windows 10)?

1. klaviaturada kontekst menyu  düyməsini basmaqla
2. klaviaturada Shift + → düymələr kombinasiyasını basmaqla
3. faylın və ya qovluğun üzərində siçanın sol düyməsini klikləməklə
4. klaviaturada Ctrl + K düymələr kombinasiyasını basmaqla
5. klaviaturada Shift + F10 düymələr kombinasiyasını basmaqla
6. faylın və ya qovluğun üzərində siçanın sağ düyməsini klikləməklə

